Əkpərova Əsmər37

# MARQARET ETVUDUN "PİŞİK GÖZÜ" ROMANI FEMİNİST İDEYALARIN İNİKASI KİMİ

(Avtobioqrafik elementlər müstəvisində)

Childhood is very intense because children can't imagine a future. They can't imagine pain being over, which is why children are nearer to the absolute state of Heaven and Hell than adults are (Margaret Atwood. Cat's Eye) [11].

"Pişik gözü"("Cat's Eye", 1972) romanı iki uşaqlı entomoloq professorunun ailəsində böyüyən qızın böyük həyata, yeni mühitə adaptasiyası, özünün qadın kimliyinin, qadın başlanğıcının tapması və onunla (həmin başlanğıcla) barışa gedən çətin yoldan bəhs edir. Xatırladaq ki, M.Etvudun on iki yaşı olana kimi onların ailəsi də iki uşaqlı idi. Əsərin baş qəhrəmanı olan Eleyn (Elaine Risley), eynilə M.Etvudun öz uşaqlığında olduğu kimi, qardaşı Stiven və valideynlərilə şəhər mühitindən uzaqda yaşayırlar. Eynilə M.Etvud kimi Eleyn və qardaşı entomoloq atasının işi səbəbiylə, təbiət qoynunda həyat sürmək məcburiyyətindədir. Onların yaxın dost çevrəsi olmadığından zamanılarının böyük hissəsini onlar özləri özlərinə tərk edilmiş vəziyyətdə, ya təbiət qoynunda, ya mütaliədə keçirirlər. Öz yaşıdları ilə sıx təmasdan məhrum olan Eleyn münaisibət qurmaq çətinliyi, özünü ifadə çətinliyi yaşayır. M.Etvudun özünün "Pişik gözü" romanında təsvir olunmuş hadisələrin onun həyatında yaşanmış mənəvi sarsıntıların inikası olması fikrini etiraf etməməsinə baxmayaraq, bir çox tədqiqatçılar əsərin avtobioqrafik səciyyə daşımasına şübhə ilə yanaşmırlar. Konkret olaraq, Robert Potts "Pişik gözü" Eleynin atasının Toronto Universiteti professor olduqdan sonra, şəhər mühitinə qayıtması və yalnız səkkiz yaşında məktəbə getməsinin M.Etvud bioqrafiyasını təkrarlamasını təsadüfdən uzaq hesab edir. Ehtimal ki, altı aylığından ryuqzaka salınaraq təbiət qoynuna aparılan uşağın (balaca Marqaretin) səkkiz yaşında şəhər mühitinə adaptasiyası o qədər də asan olmamaışdır. R.Potts yazıçıya istinadən habelə qeyd edir ki, həmin dövrdə mühiribə xəbərlərini belə, opreartiv şəkildə almaq mümkün deyildi: Etvudların yaşadığı müşəlikdə nə radio, nə kino, nə televiziya yox idi. Təhsil isə (Torontoda dövlət məktəbinə gedənə qədər – Ə.Ə.) Marqaret və Haroldun anaları ilə yalnız səhər çağlarındakı bir neçə saatlıq məşğələlərlə kifayətlənirdi [10]. Yazıçının etirafları mövcud olmasa da, səkkiz yaşında ilk dəfə məktəbə qədəm qoymuş Eleynin yeni mühitdə yaşadıqları ayrıseçkilik, kianyə, aqressiya obyekti kimi dışlanma, böyük ehtimalla demək olar ki, M.Etvudun öz uşaqlıq çağlarındakı yaşadığı travmaların yazıya hopmuş əks-sədasıdır.

Əslində Eleynin kənar aləmlə və eləcə də öz daxili komplekslərilə mübarizədə son nəticədə öz identikliyinin tapılmasına hədəflənmiş mübarizənin tərkib hissəsidir. Müəllif qadın identikliyinin nüvəsinin ən erkən uşaqlıq çağlarında qoyulduğunu vurğulayır. Eleynin femin xüsusiyyətləri daha qabarıq olan həmyaşıdları qarşısında çarəsiz, bacarıqsız duruma düşməsinə diqqət çəkən M.Etvud, yaranan uşaqlıq travmalarının böyük əksəriyyətinin də elə onun (Eleynin) erkən mərhələdə cəmiyyətdən kənarda həyat sürməsi, adaptasiyanın axıcı templərini yaşamadan ağrılı uyğunlaşma keçmək məcburiyyətində qalması ilə əlaqələndirir. M.Etvud Eleynin dilindən belə bir etirafı səsləndirir: "I'm not used to girls, or familiar with their customs. I feel awkward around them. I don't know what to say. I know the unspoken rules of boys, but with girls I sense that I am always on the verge of some unforeseen, calamitous blunder" [1;50].

Müstəqil və asi ruhlu anasından və özünü elmə həsr etmiş, vaxtının böyük hissəsini həşəratları müşahidə və tədqiq etməklə keçirən atasından gender fərqliliyinin psixoloji aspektlərini mənimsəyə bilməyən Eleyn atıldığı yeni cəmiyyət münasibətlərində "əliyalın"dır, "silahsız"dır. Cəmiyyət şərtiliklərindən uzaq olan valideynlərin qızı olaraq Eleyn böyük cəmiyyətə hazır deyil. Roya Nikandam ona da diqqət çəkir ki, Eleynin qədəm qoyduğu topluluq mahiyyət etibarilə kişiyə reverans edən cəmiyyət modelinə malik olduğundan (phallocentric society), burada qadını bədəni ilə özləşdirirlər. Tədqiqatçıya görə, M.Etvudun bir çox romanları kimi, "Cat's Eye" romanı da feminizm probleminə, qadının gender rolların differensiasiyasındakı rolunun müəyyənləşdirilməsinə, ideal feminliyin təsbiti və bu mərhələnin qət edilməsində cəmiyyətə hakim kəsilmiş ideya, inanc və dəyərlərə uyğunlaşma çətinliklərindən bəhs edir [9;.120].

Əslində əsər yetkin yaşda olan Eleyn Rislinin (Risley) xatirələri əsasında qurulur. Məşhur Kanada rəssamı olan 50 yaşlı xanım Risli (əsər çap olunanda müəllifin özünü – M.Etvudu 50 yaşdan bircə il ayırırdı. Yenə də təsadüfdürmü?! ) öz yaşadıqlarının, hal-hazırkı yaşının fövqündən arxaya boylandıqda anlayır ki, əslində zaman axıb getsə də, bəzi şeylər, bəzi yaşanmış xatirələr, alınan yaralar, keçilən sarsıntılı və məşəqqətli sınaqlar insan həyatında silinməz iz qoyaraq gedir. Bəzən isə insanın özünə belə etiraf etmək istəmədiyi ən iç qatında, altşüurunda, qəlbin qırxıncı hücrəsində ilişib qalır. Bir silkələnti, bir tərpəniş yetər ki, insan həmin "unutduğu" yaşanmışları təkrarən ən ağrılı şəkildə xatırlayaraq bir daha yaşamış olsun. Bu mənada "Cat's Eye" romanını uşaqlığın vura biləcəyi yaraların anatomiyasını tədqiq edən dərin psixoloji əsər kimi dəyərləndirirən tədqiqatçıların rəyi ilə [6;.310] razılaşmamaq çətindir.

Alice McDermottun qeyd etdiyi kimi, gənclik çağlarında feminist hərəkata qoşulan, rəssamlıq öyrənən, özünü tanımağa çalışan Eleyn nə edirsə etsin, hər çətinlik anında, hər sınaq mərhələsində, hər seçim məqamında ruhən məktəb çağlarındakı təqib və tənələrə, uşaqlıq travmalarına qayıdır: "You don't look back along time but down through it, like water. Sometimes this comes to the surface, sometimes that, sometimes nothing. Nothing goes away" [8].

Məktəb həyatının ilk dövründə Kordeliya (Cordelia) adlı sinif yoldaşı ilə ağır, psixoloji asılılıqla səciyyələnən "dostluq" münasibətləri quran Eleyn onun (Kordeliyanın) kinayə, istehza, aşağılanması ilə qarşılaşır. Daim emosional-psixoloji travmalar alan Eleyn onilliklər keçsə də, həmin ağrıları tam sağalda bilmir. Anna Lloyd "Marqaret Etvudun "Pişik gözü" romanında uşaq travması və təqiblərinin tədqiqi" adlı araşdırmasında çox doğru dəyərləndirmə apararaq, əslində Kordeliyanın zədəli özgüvəni, natamamlıq kompleksi, aqressiya şəklində ortaya çıxaraq, Eleyni emosional iflic durumuna salmaqla rahatlıq tapırdı. Kordeliya Eleyni öz daxili inamsızlıq və qorxularını proyeksiya edirdi [7;5]. Zatən hadisələrin sonrakı gedişatı – Kordeliyanın psixiatrik klinikaya salınması faktı bunu bir daha əyani şəkildə təsdiq edir. Uşaq ikən ailədə atasının təhqir və aşağılanmasına məruz qalan Kordeliya bunu eynilə Eleyn üzərində tətbiq etməklə özünün birinci situasiyadakı utan verici "qurban" mövqeyindən qurtulmağa çalışır. Bununla da, burada evdəki "qurban"ın məktəbdəki tirana çevrilməsi baş verir. Psixika, xüsusilə kövrək uşaq psixikası belə metamorfozları qaldıra bilmir və əks effekt yaranır: Kordeliyanın psixikası islaholunmaz dərəcədə zədələnir.

---

37 ADU

Digər tərəfdən Kordeliyanın təhqir və təqibləri son nəticədə, Eleyni də şəxsiyyət ikiləşməsi kimi durumla üz-üzə qoyur: illər sonra Eleyn eynilə Kordeliyanı "qurban" mövqeyinə qoyur və onun aciz durumunda illər öncəki özünü "tanıyaraq" dəhşətə gəlir.

Yaşlaşmış Eleynin ən ağrılı xatirələrinin məhz, Kordeliya və onun iki rəfiqəsinin (Carol və Grace) psixoloji təqiblərilə bağlı olması faktı, Holly Golveyə görə yetkin identikliyin bir çox problemlərinin kökünün uşaqlıq çağlarından gəlməsilə bağlı fikirlərini əyani şəkildə təsdiq edir [5]. Bu təqiblər o qədər inandırıcı, o qədər təsirli qələmə alınmışdır ki, Susanne Becker burada, hətta qotik elementlərin izlənildiyini önə sürür [4;144].

Onu da qeyd edək ki, bu romanda da M.Etvud yaradıcılığında yetərincə aktual olan abort mövzusu da qaldırılır. Bu da heç də təsadüfi deyil. Belə ki, feminist ideyalara sadiq olan, hər zaman qadın hüquqları uğrunda mübarizə aparan M.Etvud Canadada aborta olan münasibətdən ciddi narahatlıq keçirməyə bilməzdi. Məlum olduğuna 1969-cu ilə qədər Kanadada, ölkənin cinayət məcəlləsinin 241-ci maddəsinə görə, abort cinayət hesab edilir. O zamankı Kanada baş naziri – öz dövrünə görə yetərincə liberal görüşlərə malik Pierre Trudeau 1969-cu ildə qadının səhhəti təhlükə qarşısında olduqda tibb müəssisələrində abort edilməsinə icazə verən fərman imzaladı. Bütün digər hallarda abort 1988-ci ilə qədər Kanada dövlətində cinayət hesab edilməkdə davam edirdi, Yalnız 1988-ci ildə Kanada Ali Məhkəməsi abort haqqında qanunun Konstitusiyanın insan hüquq və azadlıqları ilə bağlı maddəsini kobud şəkildə pozmasını əsas gətirərək onu (abort qadağan edən cinayət maddəsini) ləğv etdi [3].

Təsadüfi deyil ki, 1964-cü ildə yazılmağa başlamış və abortun leqallaşdığı 1988-ci ildə çap üzü görmüş bu roman 60-cı illərdə abortla bağlı yaşanan dəhşətləri dilə gətirirdi. Belə ki, Eleyn Risli hamının bu problemin dəhşəti və miqyası haqqında məlumatlı olduğu, lakin mövcud ənənələr, katolik mühafizəkarlığı baxımından, hətta bunun müzakirəsindən belə çəkindiyini etiraf edərək deyirdi: "Everyone my age knows about it. Nobody discusses it. Rumors are down there, kitchen tables, money exchanged in secret; evil old women; illegal doctors, disgrace and butchery" (kursiv bizimdir. – Ə.Ə.) [2;12].

Hər il yüzlərlə qadının qeyri-leqal yolla edilmiş abortlardan səhhətinə ciddi ziyan vurması, hətta bu kimi halların ömürlük sonsuzluq və ya ölümlə nəticələnməsi M.Etvud kimi feminist ruhlu yazarı laqeyd qoya bilməzdi. Eleyn iki dəfə abort problemi ilə üzləşir. Birinci dəfə bu hal, Eleynin özünün münasibət qurduğu rəsm müəllimi Mr. Hrbikin onunla (Eleynlə) paralel olaraq görüşdüyü Suzinin (Susie) – Eleynin rəsm məktəbindəki sinif yoldaşının hamilə qalması faktı ilə əlaqədar olur. Nikahdankənar övlad gətirmək istəməyən Suzi kömək üçün Eleynə müraciət edir və Eleyn Suzinin uğradığı müvəffəqiyyətsiz abort əməliyyatının da fəsadlarını öz gözləri ilə izləmək məcburiyyətində qalır. İkinci dəfə Eleyn görüşdüyü Condan hamilə qalır və bu zaman onun özü abort təhlükəsi ilə üzləşir. Hələ ana olmaq hazır olmayan, eynilə Eleyn kimi ata olmağa hazır olmayan Condan övlad dünyaya gətirməyin məsuliyyətini dərk edir. İki "uşağ"ın uşağı olması ehtimalı Eleyni qorxudur. Abort təhlükəsilə üzləşən Eleyn daxili iztirablar yaşayır. Müqayisə üçün deyək ki, oxşar sarsıntı və iztirabları M.Etvudun digər romanının ("Surfacing" ) baş qəhrəmanı da keçirmişdir (bu barədə irəlidə bəhs ediləcək). Lakin sonuncudan fərqli olaraq, Eleyn son nəticədə övladını dünyaya gətirir. Lakin bu fakt Eleynin Conla onsuz da problemli münasibətlərini xilas etmir.

Göründüyü kimi, bir çox faktlar bilavasitə M.Etvudun öz uşaqlıq, gənclik çağlarında baş vermiş real hadisələrlə səsləşir. Bu isə öz növbəsində, yazıçıların əksər hallarda öz həyat hekayələrini, öz daxili qorxu və sarsıntılarını, öz ümid və arzularını qələmə alması ilə bağlı qəlibləşmiş fikirləri əyani şəkildə təsdiqləyir.

Ədəbiyyat

1.Atwood M. Cat's Eye. Toronto, Publisher: Anchor. 1998, 480p.
2.A Study Guide for Margaret Atwood's "Cat's Eye" (Novels for Students). Publisher: Gale. 2017, 50p.
3.Abortion in Canada https://www.thecanadianencyclopedia.ca/en/-article/abortion
4.Becker S. Gothic Forms of Feminine Fictions, Manchester: Manchester University Press , 2012, 352 pp,
5.Govey H. Review: Cat's Eye by Margaret Atwood http://portsmouthpoint. blogspot.com/2014/12/review-cats-eye-by-margaret-atwood.html
6.Jovanovic E.S. The cross-cultural roots of contemporary micronarratives: journeys across the Atlantic Rim. Madrid: Universidad Complutense de Madrid 2018, 384 pp.
7. Lloyd A. A Study of Childhood Trauma and Bullying in Margaret Atwood's Cat's Eye. Lund: Lund University, Autumn 2012 , 20p.
8. McDermott A. What Little Girls Are Made Of//The New York Times. Feb 5, 1989.
9.Nikandam R. Eating, Starving and the Body: The Presentation of Self // Asian Culture and History; Vol. 5, No. 2; 2013, 115-127pp.
10. Potts R. Light in the wilderness // The Guardian. 26 Apr, 2003
11.Surviving Childhood Victimization: Cat's Eye http://shodhganga. inflibnet. ac. in/bitstream/10603/101433/12/12_chapter%206.pdf

Açar sözlər: Marqaret Etvud, "Pişik gözü", feminist ideyaları, avtobioqrafik elementlər
Key words: Margaret Atwood, "Cat's Eye", feminist ideas, autobiographical elements
Ключевые слова: Маргарет Этвуд, «Кошачий глаз», феминистские идеи, автобиографические элементы

Резюме
Роман Маргарет Этвуд «Кошачий глаз» как отражение феминистских идей (на основе автобиографических элементов)
Роман канадской писательницы М. Этвуд «Кошачий глаз» занимает достойное место в ряду произведений, изучаемых сквозь призму проблем феминизма. Роман способствует определению роли женщины в гендерной дифференциации ролей, утверждает о наличии идеальной фемининности и в процессе преодоления этого этапа повествует о трудностях приспособления к господствующим в обществе идеям, верованиям и ценностям. Автор статьи, путем выявления автобиографических элементов в романе «Кошачий глаз» вносит ясность в проблему феминизма.

Summary
The Novel "Cat's Eye" by Margaret Atwood as a Reflection of Feminist Ideas

(Based on Autobiographical Elements)
The novel by Canadian writer M. Atwood "Cat's Eye" occupies a worthy place in a series of works studied through the problems of feminism. The novel contributes to determining the role of women in gender differentiation of roles asserts the existence of ideal femininity and, in overcoming this stage, narrates the difficulties of adapting to the ideas, beliefs and values that dominate society. The author of the article, by identifying autobiographical elements in the novel “Cat's Eye”, brings clarity to the problem of feminism.

RƏYÇİ: dos.E.Vəliyeva